# Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

№ 233 (1361) 17 dekabr - 20 dekabr 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASIYA VASİTƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASIYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ


**Azərbaycan adlı məmləkətin iqtisadi-siyasi mənzərəsini görmək və gördüklərini də yaddaşına köçürmək üçün ölkəni gəzmək zəruri şərtdir. Təbii ki, çox gəzən çox bildiyi üçün biz də regionların inkişafına dair Dövlət Proqramının necə yerinə yetirildiyini elə gəzib gördük. Və gəzdiyimiz zaman da bir daha hiss etdik ki, bu proqramın tərkib hissəsi Azərbaycan insanıdır. Yeni görülən, reallaşan, gerçəkliyə çevrilən bütün işlər Azərbaycan vətəndaşının həyat səviyyəsinin yüksəldilməsinin, onun sosial-iqtisadi vəziyyətinin daha da yaxşılaşdırılmasına xidmət edir. Bu da öz növbəsində Azərbaycan vətəndaşının dünyaya inteqrasiya etməsinə, özünü inkişaf etmiş ölkələrin vətəndaşları ilə eyni səviyyədə tutmasına imkan verir. Deməli, bu prinsiplə yanaşanda biz öncə ölkədə təhsilin, səhiyyənin, mədəniyyətin inkişaf parametrlərini göz önünə gətiririk. Onun müqayisələrini aparırıq. Bax, bu mənada üz tutduğumuz, gəzib gördüyümüz Ağcabədi rayonunun təhsil müəssisələrində həyata keçirilən yeniliklər, təminat, pedaqoji kadrların hazırlıq səviyyəsi, eləcə də məktəbəqədər müəssisələrdə yaradılmış şərait, uşaq bağçalarının günün tələbləri səviyyəsində işləməsi qənaətbəxş sayıla bilər. Çünki burada həm tələbkarlıq, həm nəzarət, həm də məsuliyyət hissi ilə işə yanaşılır və görülən işlərin də bazası əsaslı şəkildə qoyulur.**

Həm başa çatmaqda olan 2016-cı ildə, həm də ötən illərdə Ağcabədi rayonunun icra hakimiyyətinin gerçəkləşdirdiyi məqsədyönlü və ardıcıl tədbirlərin nəticəsində Ağcabədi şəhərində görülən işlər ürək açır. Və bu istiqamətdə təbii ki, Ağcabədi şəhəri də öz görkəmini dəyişir.



# AĞ GÜNLƏRİN ÜNVANI



*" Bu gün müstəqil dövlətik və ölkəmiz üçün, xalqımız üçün nə lazımdırsa, onu edirik. Bax, müstəqilliyin üstünlükləri bu layihələrin icrasındadır. Azərbaycan nəinki müstəqildir, müstəqil siyasət aparır və güclü dövlətdir. Ancaq güclü dövlətlər belə nəhəng layihələri icra edə bilər".*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev*

Cari ilin arxada qalan müddəti ərzində reallaşmış işlərin ifadəsi olan statistikaya nəzər salanda əldə etdiyimiz bilgilər bir daha bizi inandırır ki, bu gün Ağcabədi şəhərində uğurlu inkişafın şahidi olmaq mümkündür. Elə biz də bu inkişafın nəyə söykəndiyini, necə reallaşdığını həmin işin icraçılarından, yəni Ağcabədi şəhərinin sakinlərindən soruşub öyrəndik.

Məlum oldu ki, görülən işlərin hər birinə ayrı-ayrılıqda rayon icra hakimiyyəti başçısının və onun komandasının diqqət yetirməsi işi görənlərin məsuliyyətini daha da artırır. Ona görə də Ağcabədi şəhər İnzibati Ərazi Dairəsi üzr icra hakimiyyəti başçısının nümayəndəsi bilavasitə hər an işə nəzarəti diqqətdə saxlayır və ortaya çıxan problemlərin yerindəcə həll edilməsinə çalışır. Onun hesabatlarını gözdən keçirəndə məlum olur ki, şəhər inzibati ərazisində planlı şəkildə həm də milli arxitekturaya əməl etməklə, milli ornamentləri seçməklə bir yeni şəhər yaradılır. Yeni görülən, tikilən hər bir işdə, hər bir sosial obyektdə millilik xüsusi olaraq qabardılır. Elə bunun nəticəsidir ki, istər sosial obyektlərin, istər təhsil, səhiyyə, mədəniyyət ocaqlarının tikintisi, təmiri, bərpası işlərində, həmçinin küçə və səkilərin yenidən qurulmasında, abadlaşdırılmasında həmin milli çalarlar diqqət mərkəzində saxlanılır. Bu da sonda göz oxşayır, könül açır.

Elə buradaca onu da əlavə edək ki, bu il şəhər ərazisində, yəni 17 min hektardan artıq bir ərazidə 43 min nəfərdən artıq sakinin yaşadığı bir şəhərdə köklü işlər görülübdür. Vurğulamaq yerinə düşər ki, bu cün Ağcabədi şəhərində 10 mindən artıq təsərrüfat mövcuddur. Bu qədər insanın yaşadığı bir şəhərdə 14 seçki məntəqəsi fəaliyyət göstərir. Təbii ki, 43 min nəfərdən artıq sakini olan Ağcabədidə işlərin də bu insanların adına, bu şəhərin tarixinə uyğun bir şəkildə qurulması həm tələbatdı, həm də zərurətdi.

Bəli, Ağcabədi şəhərinin özündə, eləcə də bütün rayonda təhsilin inkişafına xüsusi önəm verilir, diqqət yetirilir. Birmənalı şəkildə demək olar ki, şəhər ərazisində fəaliyyət göstərən bütün məktəblərdə, hər il, eləcə də 2016-cı ildə təmir-bərpa işləri görülüb. Təhsil müəssisələri dərs ilinə tam hazır vəziyyətdə istifadəyə verilib. Bu da həm maddi-texniki bazanın möhkəmləndirilməsindən, yenilənməsindən, həm də təhsilin özünün keyfiyyətinin yüksəldilməsindən xəbər verir. Bu gün Ağcabədi şəhər məktəblərində qış mövsümü ilə əlaqədar olaraq əsas problem sinif otaqlarının qızdırılmasıdır. İcra hakimiyyəti başçısının şəhər ərazi dairəsi üzrə nümayəndəsinin verdiyi məlumata görə, demək olar ki, məktəblərin, yeni sinif otaqlarının qızdırılmasında aparılmış uğurlu təmirin sayəsində qazdan istifadə edilir. Ona görə də sinif otaqlarında demək olar ki, problem təbii ki, isidilmə məsələsində xeyli aradan qaldırılıb.

**Təkcə siniflərin isidilməsi deyil, ümumiyyətlə, təhsil sahəsi üçün zəruri olan bütün problemlər rayon rəhbərliyinin diqqət mərkəzindədir. Rəqəmlərə müraciət etsək, onda görərik ki, ötən tədris ilinin yekunlarına görə 145 nəfər ali məktəbə qəbul olmuşdur. Bu da öncəki ilin nəticələrindən xeyli artıqdır. Ümumiyyətlə isə şəhər məktəblərinə qəbul, eləcə də məzunların ali məktəblərə daxil olması sayəsində Ağcabədi şəhər məktəblərinin nəticələri sevindiricidir. Ən sevindirici hallardan biri də odur ki, ali məktəblərə qəbul zamanı 600 baldan yuxarı nəticə göstərənlər arasında Ağcabədi şəhər məktəbləri də var. Onu da qeyd etmək yerinə düşər ki, bu gün Ağcabədi şəhərində fəaliyyət göstərən Uşaq Gənclər Şahmat Məktəbinin, texniki yaradıcılıq məktəbinin, ekoloji tərbiyə və təcrübəçilik mərkəzinin, Uşaq Gənclər İdman Məktəbinin , Uşaq yaradıcılıq məktəbinin və digər təhsil qurumlarının fəaliyyəti xeyli gücləndirilmiş və bu ünvanlara uşaqların marağı daha da artmışdı. Təbii ki, gələcəyimiz olan övladların təhsil sahəsinə artan bu marağı onların formalaşmasında öz sözünü deyəcəkdir.**

(Ardı var)

**Əbülfət Mədətoğlu**